

Mustafa Çəmənli

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

## (Xatirələr)

(əvvəli ötən şənbə saylarımızda)

**Nəşriyyatın hesabına çap etmək istədiyimiz kitabların heç biri vaxtında nəşr olunmurdu. Buna ən başlıca səbəb kitab ticarəti təşkilatlarının nəşriyyata olan borclarını vaxtlı-vaxtında ödəyə bilməməsi, əlifba dəyişiklikləri, oxucu itkisi idi. Əlbəttə, səbəblər çoxdu. İllərlə vərdiş etdiyin bir sistemdən başqa sistemə ağrısız, itkisiz keçmək çox çətin idi. Ən istəkli dostunun belə, kitabını vaxtında çap etdirib onu sevindirə bilmirdin. Kitaba verilən tirajlar kəskin şəkildə aşağı düşmüşdü, kitab mağazalarında pal-paltar satılmağa başlanmışdı. Ancaq buna baxmayaraq, o çətin dövrdə az da olsa dəyərli əsərlər nəşr edə bilmişdik. Yadımda qalanlardan Elçinin ”Ömrün son səhəri”, Anarın ”Şəhidlər dağı”, ”Otel otağı”, Nəriman Həsənzadənin ”Taleyin töhfəsi”, Elməddin Əlibəyzadənin ”Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi”, Ayaz Vəfalının ”Füzuli xəlqiliyi”, Firudin Şuşinskinin ”Şuşa”, Qaçay Köçərlinin ”Qanlı hekayələr”, Fəridə Hicranın ”Qarabağda talan var”, Nodar Dumbadzenin ”Ağ bayraqlar” (tərcümə edəni Xeyrulla Əliyev), Hüseyn Abbaszadənin ”Dünyadan gör necə insanlar gedib”, Sabir Əsədovun ”Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası”, Xalid Əlimirzəyevin ”Nizami Gəncəvinin insan konsepsiyası”, Axund Hacı Mirəziz Seyidzadənin ”İslami söhbətlər”, Osman Nuri Topbaşın ”Varlıq nuru” (dilimizə uyğunlaşdıran Məmməd Aslan) və b. kitabların adını çəkə bilərəm. Kitabını nəşr edə bilmədiyimiz müəllifləri isə, bu gün təəssüf hissi ilə anıram.**

Kitabını nəşr edə bilmədiyimiz müəlliflərdən biri də Oqtay Eldəgəz idi. Ömrünü Azərbaycanın azad, müstəqil dövlət olmasına həsr etmiş Oqtay Eldəgəz! O, tamamilə fərqli düşüncəyə, orijinal yazı üslubuna malik bir insan idi. İlk dəfəydi ki, biz onun hekayələrini, esselərini nəşriyyatın tematik planına salmışdıq. Hətta əlyazmasını oxuyub çapa hazırlamışdıq. Ancaq nə olsun, müsbət nəticə yox idi. O hər dəfə nəşriyyata, mənim yanıma gələndə, kitabını nəşr edə bilmədiyimizə görə mənən əzab çəkirdim. Çünki qarşımdakının kim olduğunu yaxşı bilirdim. Oqtay Eldəgəz sovet hökumətinin dünyaya meydan oxuduğu bir vaxtda - 1962-ci ildə Milli Azadlıq Qərargahı yaratmış, idarə və müəssisələrdə kök salmış daşnakların, rus şovinistlərinin işdən çıxarılması təşkil etmiş, onların yerinə azərbaycanlıların təyin edilməsinə nail olmuş, milli oyanış və istiqlalımız uğrunda gah gizli, gah aşkar mübarizə aparmış, bu yolda acılar çəkmişdi. Zəmanənin qocaltdığı, lakin sındıra bilmədiyi Oqtay Eldəgəzlə söhbət etmək, onun cəmiyyət və insanlıq haqqında düşüncələrini dinləmək nə qədər xoş idi. O, vaxtilə Azərbaycan Atabəylər dövləti haqqında tədqiqat aparıb özünə ”Eldəgəz” təxəllüsünü götürmüşdü. Və bu adı öz əməlləri ilə doğrultmuşdu. Belə bir adama kömək eləməkdə aciz idim.

Nə deyim! Sənə güvənən birisini sevindirməmək nə qədər göynərtilidir. Gələndə min bir ümidlə, gedəndə ümidsiz  Qapını ardınca astaca örtüb gedənin ayaq səslərini dinləmək nə qədər çətin idi. Bir də heç vaxt eşitməyəcəyin ayaq səslərini!

***

Vaxtilə ”Yazıçı” nəşriyyatında bir yerdə çalışdığımız tərcüməçi Natiq Səfərovun da ”Gənclik” nəşriyyatının planında hind mifologiyasından etdiyi ”Dünyanın mühafizləri” adlı tərcümə kitabı maliyyə çatışmazlığı üzündən 1 №-li mətbəədə ”yatıb” qalmışdı.

Natiq Səfərov Azərbaycan dilini incəliyinə qədər bilən, geniş mütaliəli, milli ruhlu, həm də koloritli bir qələmdaşımız idi. Tükü tükdən seçərdi. Bu ortaboylu, çəlimsiz dostumuzun qəribə bir aurası vardı. Danışarkən bir qədər pıçıltıyla, amma emosional danışardı. Dodaqlarında daim xatakar təbəssüm oynaşardı. Yaşıla çalan gözlərində adama sirayət edən qəribə bir parıltı olardı. Daxili dünyası zəngin olmayan adamlardan aralı gəzərdi, etika xatirinə söhbətinə qulaq asdıqlarını isə, çox incə şəkildə dolayardı.

Altmış bir yaşında dünyasını dəyişən Natiq Səfərov dünya ədəbiyyatından vaxtaşırı tərcümələr edərdi. İlya İlf və Yevgeni Petrovun ”Qızıl dana”, Vasili Şukşinin ”Qırmızı başınağacı”, Sanbayevin ”Ağ arvana”, Hirant Motevosiyanın ”Çəhrayı ilxı”, Oljas Süleymenovun ”Az-Ya” əsərlərini, eləcə də Vilyam Folkner və Qabriel Qarsiya Markesdən etdiyi tərcümələri oxucular rəğbətlə qarşılamışlar.

Dostum Əli Əmirlinin Sumqayıt hadisələrindən bəhs edən ”Ölü doğan şəhər” adlı dəyərli romanı yazıldığı tarixdən altı-yeddi il sonra, 1999-cu ildə nəşr olundu. Bu əsərdə Sumqayıt hadisələri bütün çılpaqlığı, ziddiyyətləri ilə təsvir olunmuşdu.

Romanı oxuduqca biz də istər-istəməz o məlum hadisənin iştirakçısına çevrilirik.

Burada görkəmli alim Yaşar Qarayevin çox obrazlı və dəqiq ifadə etdiyi bir fikrini nəzərə çatdırmaq istəyirəm: ”...Zamanın çöhrəsi yalnız sənətin güzgüsündə görünür, ayrı heç yerdə! Maraqlıdır, hətta zaman öz əbədiyyətini sənətdə dərk edir. Tanrı görünə bilmək üçün təbiəti, insan Tanrıya bənzəmək üçün sənəti kəşf edir... Böyük sənəti yaradanlar həmişə Tanrı ilə, Təbiətlə və bir də tarixlə həmmüəllif olurlar”.

***

Mətbuat və İnformasiya Nazirliyi ləğv olunandan sonra biz binamızı da itirdik. ”Azərnəşr” adlanan bu memarlıq abidəsi ”Mosbanka” verildi. ”Azərnəşr” xüsusi bir binaya malik olsa da, ”Gənclik” heç nəyə nail olmadı, bizi Mərkəzi poçtun dördüncü mərtəbəsinə köçürdülər, nəşriyyat isə Mədəniyyət Nazirliyinin tabeliyinə keçdi. Hər dəfə Mərkəzi poçtun qapısından içəri keçəndə istər-istəməz rəhmətlik Şahmar Əkbərzadənin məşhur ”Mərkəzi poçtxana” şeri xəyalımda canlanırdı:

**Mərkəzi poçtxana, əlac et yenə,**
**Havayı düşməyib buraya yönüm.**
**Pənah gətirmişəm könlümü sənə,**
**Bir gör neyləyirsən, gözünə dönüm!**

**Bu payız küsəcək məndən Qarabağ,**
**Yollarda qalacaq gözü yolların.**
**Payım budaqlardan özün asacaq,**
**Bağrı çatlayacaq gülöyşə narın.**

**Üstə dizin-dizin iməklədiyim**
**Torpağın könlünü nə təhər alım?**
**Anamdır, bəs ona nə təhər deyim:**
**”Yanına gəlməyə yoxdur macalım?”**

Biz Mərkəzi poçta köçməklə olan-qalan müəlliflərimizi də itirdik. Bu təzə binada, bizə tək-tək yazıçı müraciət edirdi. Ancaq qələm dostlarımızdan Zəlimxan Yaqub, Hüseynbala Mirələmov vaxtaşırı nəşriyyata gələrdilər. Hüseynbala Mirələmovun ”Xəcalət”, ”Gəlinlik paltarı”, Zəlimxan Yaqubun ”Qayıdaq əvvəlki xatirələrə”, ”O qızın göz yaşları” kitablarını öz vəsaitləri hesabına biz çap etmişdik.

Mən burada ”Gənclik” nəşriyyatında sonuncu redaktə işlərimdən biri haqqında danışmaq istəyirəm. Dilbər Axundzadənin ”Müşfiqli günlərim” kitabı haqqında. Dilbər xanımın özünü tanımazdan çox illər öncə mən onu Mikayıl Müşfiqin bəzi şeirlərindən, ən nəhayət, 1968-ci ildə ”Gənclik” nəşriyyatında çap etdirdiyi ”Müşfiqli günlərim” xatirələr kitabından tanımışdım. Sonralar onunla ”Yazıçı”da, ”Gənclik”də görüşmüşdük. Mən onu ilk dəfə görəndə şəkillərindən mənə bəlli olan gözəlliyindən soraq verən ancaq gözləri idi. Mikayıl Müşfiqin vəsf etdiyi gözlər:

**Ah, o bulaq kimi qaynayan gözlər,**
**Gözəl təbiətin şeiriyyətimi?!**
**Axı sən bilmirsən, bilənlər bilir -**
**O gözlərə olan məhəbbətimi.**



”Müşfiqli günlərim” kitabının ikinci nəşri 1978-ci ildə olub. Dilbər Axundzadə sağlığında gileylənirdi ki, birinci dəfə nəşriyyatda xatirələrinin çox hissəsini ixtisar ediblər. Kitabın ikinci nəşrinin təşəbbüsçüsü və redaktoru, professor Qulu Xəlilov isə xatirələrə qayğı ilə yanaşıb. İndi, 2005-ci ildə xatirələrin üçüncü nəşrini biz Dilbər xanımın iştirakı olmadan nəşrə hazırlayırdıq. Çünki Mikayıl Müşfiqin sevimli Dilbəri 1990-cı ildə vəfat etmişdi. Bu üçüncü nəşrin materiallarını bizə Dilbər xanımın yeganə qızı Leyla Axundzadə təqdim etmişdi. 1978-ci ildə nəşr olunmuş ”Müşfiqli günlərim”ə Dilbər Axundzadənin sonralar yazdığı xatirə-məqalələri, şeirləri ilə yanaşı, onun haqqında filologiya elmləri namizədi Cəlil Qasımovun ”Dilbər Axundzadə nə üçün həbs edilmişdir?” məqaləsini, Rafiq Rəhimlinin ”Sən neyçin ağlarsan” essesini də əlavə etmişdim. Əslində, mən bu sonuncu nəşrin yalnız redaktoru olmamışdım, həm də kitabı tərtib etmişdim. Kitab Leyla Axundzadənin ”Anam Dilbər Axundzadəni xatırlarkən” ön sözü ilə açılırdı. Mən Dilbər xanımın sonradan yazıb çap etdirdiyi ”Müşfiqli günlərim” necə yarandı” məqaləsini xatirələrin əvvəlində vermişdim. Bu kiçik yazıda xatirələrin kimin təşəbbüsü ilə yazıldığı, kimlərin ona kömək etdiyi, qayğı göstərdiyi əksini tapmışdı. Bu yazıdan mənə aydın oldu ki, Dilbər xanım 1958-ci ildə Bakıya köçmüş, Mikayıl Müşfiqin 50 illiyi ilə əlaqədar bir neçə xatirə və şeirlərlə o zaman Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsinin sədri şair Teymur Elçinin qəbulunda olmuşdur. Teymur Elçin Dilbər xanımı hörmətlə qarşılamış, gətirdiyi xatirələri və şeirləri diqqətlə oxuyandan sonra üzünü ona tutub demişdi: ”Dilbər xanım, sizdən bir xahişim var. Müşfiqin həyatı haqda xatirənizi yazın”. Beləcə, bu sözlər ”Müşfiqli günlərim”in yazılmasına bir təkan olur.

Dilbər xanımın qızı Leyla Axundzadənin yazdığına görə, anası ”Müşfiqsiz günlərim” adı altında Müşfiqdən sonra başına gələnləri yazmaq istəyirmiş, çox təəssüf ki, bu iş arzu olaraq qalıb. Buna görə də kitabda onun ayrı-ayrı başlıqlarla yazdığı xatirə-məqalələrini ”Müşfiqsiz günlərim” adı altında qruplaşdırdım, şeirlərini isə ”Sən həmişə mənimləsən” sərlövhəsi altında topladım. Əvvəlki nəşrdən fərqli olaraq, bu yeni nəşrə Dilbər xanımın və Mikayıl Müşfiqin ömürlərinin müəyyən dövrlərini əks etdirən xeyli sayda şəkillər əlavə etdim. Bu nəşrdə nəşriyyatın direktoru Əlican Əliyevin təşəbbüsü ilə Mikayıl Müşfiq və Dilbər Axundzadənin istintaq materiallarının surətini Milli Təhlükəsizlik Nazirliyindən alaraq kitabın müvafiq səhifələrində yerləşdirdim.

Əslində, Dilbər Axundzadə ilə Mikayıl Müşfiqin taleyi, başlarına gətirilən müsibətlər böyük bir romanın mövzusudur. Əldə olunan arxiv sənədlərindən məlum olur ki, Mikayıl Müşfiqi 1937-ci ilin iyun ayının 3-dən 4-nə keçən gecə, şairin gənc xanımı Dilbər Axundzadəni isə 2 noyabr 1937-ci ildə həbs etmişlər. Yazıq Dilbər xanım həbsxana divarları arxasında olmazın əziyyətlər çəkmişdi. Elə bir əziyyət ki, hətta toy günü belə yadından çıxmışdı. Burada 3 fevral 1938-ci ildə müstəntiqin Dilbər xanımla etdiyi sorğu-suala diqqət yetirin:

**Sual:** - Siz əriniz İsmayılzadə Müşfiqlə neçənci ildən yaşayırsınız?

**Cavab:** - Mən ərim İsmayılzadə Müşfiqlə 1935-ci ildən (əslində, 1933-cü ildən - M.Ç.) onun həbsinə - yəni 1937-ci ilə qədər yaşamışam.

**Sual:** - Sizə əriniz Müşfiq İsmayılzadənin əks-inqilabi millətçi fəaliyyətindən nə məlumdur?

**Cavab:** - Ərim İsmayılzadə Müşfiqin əks-inqilabi millətçi fəaliyyəti barədə mənə heç nə məlum deyil. Mən onun fəaliyyəti barədə maraqlanarkən o mənə dedi ki, mən belə qərara gəlmişəm sənə öz fəaliyyətim haqqında heç nə deməyim, ona görə ki, sən çox əsəbisən. Bundan başqa, İsmayılzadə tez-tez məzuniyyətlərə gedirdi, mən isə öz ictimai işlərimlə və zaçotlarımla məşğul olurdum.

**Sual:** - İfadənizə bundan başqa nə əlavə edə bilərsiniz?

**Cavab:** - Əlavə edirəm ki, xalq düşmənləri haqqında məqalələr çap ediləndə mən öz tərəfimdən evə gələrkən hər vəchlə çalışırdım öz ərim İsmayılzadədən onun fəaliyyəti barəsində hər şeyi öyrənim. O zaman İsmayılzadə mənə cavab verdi ki, ”onun tərəfindən heç bir əks-inqilabi iş görülmür. Səndən yaxşı diplomat, üstəgəl müstəntiq çıxar”.

Dilbərin taleyi ilə (təkcə Dilbərinmi?) leytenant Koqanlar, mayor Borşovlar, leytenant Qolubsoylar kimi ”keqebeşniklər” məşğul olurdular. İstintaq altında təkcə Dilbər əzab çəkmirdi. Dilbər xanım o əzablı günləri yad edərək yazırdı: ”Bayıl həbsxanasında keçirdiyimiz hisləri, həyəcanları, əzab və işgəncələri nə dillə söyləmək mümkündür, nə də qələmlə yazmaq! İş o yerə gəlib çıxmışdı ki, mən ”xalqının düşməni” damğasının dəhşətini duyduğumdan, aclıq elan eləməyə məcbur oldum. Onda məni yoldaşlarımdan ayırıb tək adamlıq kameraya gətirdilər. Oradakı işgəncə və əzablar mənə indiyə qədər çəkdiklərimin hamısını, hətta ”xalq düşməni” adının dəhşətlərini də unutdurdu. Anamdan əmdiyim südü burnumdan gətirdilər. Huşumu necə itirmişəm, xəstəxanaya nə cür gəlmişəm, heç cür xatırlaya bilmirəm”.

(ardı gələn şənbə sayımızda)